# TÜRKMƏN ƏDƏBİYYATININ ZİRVƏSİ – MƏHTİMQULU FƏRAQİ

**Töhfə Talıbova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: tohfe_t@yahoo.com

*https://doi.org/10.59849/iscapltmt.2024.23*

**Xülasə.** Məqalədə türkmən ədəbiyyatının klassik şairi Məhtimqulu Fəraqinin zəngin ədəbi irsi təhlil edilmişdir. Bildiyimiz kimi, Məhtimqulu Fəraqi öz istedadı, qəlbləri riqqətə gətirən şeirləri ilə nəinki Türkmənistanda, hətta onun sərhədlərindən kənarda da məşhur olan böyük şairdir. Bu gün türkmən ədəbiyyatını klassik poeziyanın bayraqdarı, sözün əsl mənasında, türkmən xalqının milli şairi Məhtimqulusuz təsəvvür etmək mümkün deyildir. Məhtimqulu çoxşaxəli poeziya yaradıcılığı olan sənətkarlardandır. O, Şərq ədəbiyyatında lirik janrın bir çox növündə qələmini sınamış, orta əsr ənənələri ruhunda və şifahi xalq poeziyasına yaxın yeni tipli, realist şeirlər yazmış şairlərdəndir. Onun yaradıcılığı xalq şeirinin qoşma, gəraylı, təcnis və s. növləri kimi, folklor motivləri ilə də zəngindir. Məqalədə şairin ümumi yaradıcılığı və onun müəyyən sahələri, ədəbi əlaqələrin inkişafında rolu, xalqlar dostluğu, sənətkarlıq xüsusiyyətləri və s. tədqiqat obyekti kimi götürülmüşdür. Məhtimqulu Fəraqinin özünəməxsus özəlliklərə malik poeziyası olan böyük sənətkardır. Onun yaradıcılığı insanı özünə valeh edir; səmimi, inandırıcı və millidir. Onun poetik irsinin öyrənilməsi Azərbaycan və türkmən xalqlarının bir-birinə daha da yaxınlaşması, onlar arasında dostluq, həmrəylik, humanizm və türkçülük ideyalarının daha da möhkəmlənməsinə xidmət edəcəkdir.
**Açar sözlər:** Türkmən ədəbiyyatı, Məhtimqulu Fəraqi, türk dünyası, dünya ədəbiyyatı, xalq poeziyası

## Peak of the Turkmen literature – Mahtymguly Pyragy

**Tohfe Talibova**
Doctor of philosophy in philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Azerbaijan
E-mail: tohfe_t@yahoo.com

**Abstract.** In the article the rich literary heritage by Mahtymguly Pyragy, classic poet of the Turkmen literature. As known, Mahtymguly Pyragy is a great poet who is known with his talent and his heart touching poems not only in Turkmenistan but also but even beyond its borders. Turkmen literature would be inconceivable without Mahtymguly, who stands as the flagman of classical poetry and holds the esteemed title of the national poet for the Turkmen people. Mahtymguly is one of the masters who have many-branched poetry. He is one of the poets who ventured into numerous lyrical genres in the Eastern literature, wrote realistic poems of a new type in the spirit of medieval traditions and close to oral folk poetry. His creativity is rich with goshma, garayli, tajnis and other types and folklore motives of folk poetry. The objective of the research work is the creative work of the poet, the various genres he engaged in, his role in shaping literary connections, friendship among nations, and highlighting distinctive artistic features. Mahtymguly Pyragy emerges as a remarkable poet with poetry characterized by unique and notable features. His creativity fascinates a person; he is sincere, convincing and national.
Studying his poetic heritage will serve to bringing Azerbaijani and Turkmen people together, strengthening ideas of humanism, solidarity and Turkism.

**Keywords:** Turkmen literature, Mahtymguly Pyragy, Turkic world, world literature, folk poetry

Türkmən ədəbiyyatının klassik şairi və mənəvi qurucularından sayılan Məhtimqulu Fəraqi (1724-1807) XVIII-XIX əsrlər türkmən poeziyasının ən parlaq simalarından biridir. O öz xalqının mənəvi dünyasının poetik təzahürü, onun ruhunun, arzu və düşüncələrinin tərcümanı, zəngin və möhtəşəm tarixi olan türkmən ədəbiyyatının müasir dünya qarşısında qürur mənbəyidir. Bu gün türkmən ədəbiyyatını klassik poeziyanın bayraqdarı, sözün əsl mənasında, türkmən xalqının milli şairi Məhtimqulusuz təsəvvür etmək mümkün deyildir. O, eyni zamanda ortaq türk ədəbiyyatının görkəmli ədəbi simalarındandır.

Məhtimqulu Fəraqi öz sağlığında istedadı, qəlbləri riqqətə gətirən şeirləri ilə Türkmənistan sərhədini aşmış böyük şairdir. onun ölməz misralarında insan həyatının dəyərindən, humanistlikdən, elm və biliyə himayədarlığından, mərhəmət, hörmət və s. tərənnüm olunmuşdur. Professor Annaqurban Aşırovun qeyd etdiyi kimi, “Məhtimqulunun özü-özünəməxsus dünyadır. Onu başa düşmək üçün şairin mənəvi dünyasına baş vurmaq lazımdır. Bu da mümkün olmayan işdir. Amma Məxdumqulunun dünyası öz pərəstişkarlarına dinclik vermir” [1, s.23].

Nizami Gəncəvi, İmadəddin Nəsimi, Əlişir Nəvai, Məhəmməd Füzuli və türk dünyasının özündən əvvəlki poeziya korifeylərinin ədəbi məktəbinin poetik şöhrət zirvəsinə yüksələn, türkmən xalqının ədəbi və ictimai fikrinin inkişafında xariqüladə xidmətləri olan mütəfəkkir şairin ədəbi irsi XX əsrin əvvəllərindən Azərbaycan şair və yazıçılarının, alimlərinin, bütünlükdə elmi ictimaiyyətin həmişə diqqət mərkəzində olmuş, bu böyük zaman kəsimində öz yaradıcılığı ətrafına çoxlu sayda ədəbiyyatşünas nəsli toplamağa müvəffəq olmuşdur.

Türk dünyası və dünya ədəbiyyatında böyük iz qoyub, zəngin və çoxşaxəli yaradıcılıq yolu keçən Məhtimqulu Fəraqinin xalq poeziyasının bağrından qopub gələn şeirlərinin əsas mövzuları onu daim düşündürən vətən, xalq, xalqının müstəqil dövlət quraraq, asudə, sülh şəraitində yaşaması olmuşdur.

*Ceyhun-bəhri, dənizi-Xəzər arası,*
*Çöl üstündən əsər yeli türkmənin.*
*Gül-qönçəsi qara gözüm qarası,*
*Qara dağdan axar seli türkmənin.*

*Haqq qorumuş, vardır onun sayası,*
*Quyruq yellər çölündə nəri – mayası,*
*Rəngarəng gül açar yaşıl yaylası,*
*Qərq olmuş reyhana çölü türkmənin.* [2, s.29]

– deyə öz doğma xalqını tərənnüm edən şairin milli ruh, vətəndaşlıq motivləri ilə yoğrulmuş yaradıcılığında, həmçinin xalqının sevincini, qəmini, kədərini, qayğı və düşüncələrini də çox lakonik bir tərzdə ifadə etmişdir. “Göz yaşını tökməli olduq” adlı şeirində

*Türkmənlər bağlasa bir yerə beli,*
*Qurudar Gülzumu, dəryayi-Nili,*
*Təkə, göklən, yomut, yazır, əlili,*
*Bir padşaha qulluq etsək beşimiz.* [2, s.12]

– deyən böyük şair türkmən ədəbiyyatı tarixində ilk dəfə öz xalqını birləşdirmək, dövlət qurmaq məsələsini bütün aydınlığı ilə göstərmişdir. Vətənin müdafiəsini, müstəqil və sarsılmaz bir dövlətə çevrilməsini yalnız birləşməkdə görən şair, Vətənsiz insanın heçə çevrildiyini öz şeirlərində daim vurğulayırdı. Bu və başqa səpkili onlarca şeirlərinə əsaslanaraq, bu gün iftixarla söyləmək olar ki,

təpədən-dırnağa qədər milli, Vətəncanlı, torpaq siqlətli əbədiyaşar Məhtimqulu Fəraqi Türkmənistanın istiqlal şairi, onun müstəqilliyinin simvoludur. Xalqının sevincini, milli ruhunu, azadlıq arzularını öz poeziyasında yaşadan şair müasir dünyanın ən çox çap olunan, ən çox oxunan və ən çox sevilən klassiklərindən biridir.

Akademik İsa Həbibbəyli bu haqda yazır: "Dünya ədəbiyyatı korifeyləri sırasında öz layiqli yerini tutan Məhtimqulu Fəraqinin türkmən klassik söz sənəti tarixində özünəməxsus yaradıcılıq yolu və üsulu, türkmən ədəbiyyatında xüsusi yeri olan, şairlikdəki məharəti, xüsusən şeir dilinin zənginliyi və xalq dilinə yaxınlığı ilə özündən əvvəlki şairlərdən ölçülməz dərəcədə seçilən, öz sözü və öz səsi olan, türkmən şeirini milli duyğularla rövnəqləndirən, onu cəmiyyət üçün anlaşıqlı bir hala salan və türkmən şeirinin inkişafına təkan verən qüdrətli sənətkar, türkmən xalqına misilsiz xidmətlər göstərən böyük vətəndaş şairdir. O, türkmən şeirinə yeni ruh, yeni təravət gətirmiş, xalqına doğma və yaxın olan bir sıra şeir formalarında gözəl söz inciləri yaratmışdır" [5, s.169].

Məhtimqulu Fəraqinin obrazı doğrudan da nəsillər üçün tükənməz ilham mənbəyi, mənəviyyat, vətənpərvərlik, mərdlik, müdriklik, intellekt, geniş bilik mənbəyidir. Məhtimqulu poeziyasının özünəməxsus dili, onun üslub və leksik-semantik xüsusiyyətləri vardır. Onun şeirləri türkmənlərin həyat tərzi, mədəniyyəti, adət-ənənə və mərasimlərinə həsr olunmuşdur.

Türkmənistan prezidenti Qurbanqulu Berdimühəmmədovun sözləri ilə desək: "Məhtimqulu Fəraqi insan ruhunun mənəvi şəfa mənbəyidir. Şairin şeirləri əsrlər və nəsillər boyu öz əhəmiyyətini itirməmiş, tərkibindəki məlhəm kimi ürəyə təsir edən, onu ruhlandıran, insana ən xoş təsir bağışlayan göstərişləri ilə məşhurdur. Onun şeirləri çarəsiz qəlblərə dərman, yorğun bədənlərə güc, ruhdan düşənlərə mənəvi qanaddır. Məhz buna görə də xalqımız Məhtimquluya həmişə küskünlük, nigarançılıq, qəmli günlərdə üzə çıxan dərdlərə şəfa verə bilən bir loğman kimi yanaşıb. Şairin şeirləri məlhəm kimi, hansı dövrdə olursa olsun, gəncdən qocaya hamının ruhunu saflaşdırır, bu gözəl dünyaya, insanlığa, həyata məhəbbət oyadır, xalqın ruhunu yüksəklərə qaldırır, xalqın rifahını təmin edir. Bütün türkmən cəmiyyətinin mənəvi sağlamlığını təmin edir" [3].

Öz xalqı kimi, Azərbaycan xalqının da ürəyinə doğma olan mütəfəkkir şairin zəngin ədəbi irsinin dilimizə tərcümə olunaraq nəşri və yaradıcılığının hərtərəfli tədqiq edilməsi böyük və şərəfli işdir.

Mütəfəkkir şairin şeirlərinin toplusu sovet hakimiyyəti illərində Türkmənistanda kitab şəklində nəşr olunduqdan sonra sürətlə başqa dillərə tərcümə olunaraq, müəllifinə dünya şöhrəti qazandırmışdır. Bu gün Məhtimqulu Fəraqinin şeirləri dünyanın bir çox xalqlarının dilində minlərlə nüsxədə çap olunmaqdadır. Azərbaycanda da Məhtimqulu Fəraqininin şeirləri həmişə böyük həvəslə dilimizə çevirərək nəşr etdirilmişdir. Məhz bu səbəbdən azərbaycanlı oxucular şairin zəngin ədəbi irsi ilə başqa türkmən şairlərinə nisbətən daha tez tanış olmuşlar. Hələ XX əsrin 20-ci illərindən başlayaraq onun şeirlərinin bir çoxu Azərbaycan dilinə çevrilərək mətbuat səhifələrində, toplularda, nəhayət, ayrıca kitab halında nəşr olunmuşdur.

Məhtimqulu Fəraqinin əsərlərinin nəşri ilə bərabər, onun həyat və yaradıcılığının araşdırılması Azərbaycan ədəbiyyatşünaslığının diqqətini həmişə cəlb etmiş, azərbaycanlı alimlər dahi şairin böyüklüyünü elmi ictimaiyyətə, oxuculara çatdırmaq üçün bu mövzuda mətbuat səhifələrində məqalələrlə çıxış etmiş, dissertasiyalar və elmi monoqrafiyalar yazmışlar.

Yazıçı-publisist, filologiya elmləri doktoru, professor İsmayıl Vəliyev də Məhtimqulu Fəraqi yaradıcılığı haqqında, onun Azərbaycan və Şərq xalqları ədəbiyyatı ilə əlaqələri haqqında bir sıra məqalələr yazmışdır. Məqalələrinin birində yazır: "Məhtimqulunun yaşayıb-yaratdığı zamanla çağdaş dünya arasında xeyli məsafə var. Buna baxmayaraq, elmi-bədii və dünyəvi-fəlsəfi şeirlər yaradan şair də, onun idrakı, təfəkkürü və fərdi düşüncələri də bu gün üçün zəngin, dolğun və maraqlıdır. Məhtimqulunun bədii-poetik qənaətləri islam aləmi və türk dünyası üçün mühüm və əhəmiyyətlidir. Bu baxımdan şairin əsərlərinin və həyatının hər zaman öyrənilməsi, izlənməsi, oxunması, nəsillərin tərbiyəli, əxlaqlı yetişməsi və yaşaması üçün əhəmiyyətli və çox gərəklidir" [4, s.11-17].

Məhtimqulu Şərq ədəbiyyatında lirik janrın bir çox növündə qələmini sınamış, orta əsrlər ənənələri ruhunda və yeni tipli, realist, şifahi xalq poeziyasına yaxın şeirlər yazmış şairlərdəndir. Onun yaradıcılığı xalq şeirinin qoşma, gəraylı, təcnis və s. növləri kimi, folklor motivləri ilə də zəngindir. Məhtimqulunun yaradıcılığında bu əlamətlərin olduğunu bildirən filologiya elmləru doktoru Ramiz Əskər şairin “Seçilmiş əsərləri”nə yazdığı “Böyük türkmən şairi Məxdumqulu Fəraqi” adlı giriş məqaləsində yazır: “Məxdumqulu hər şeydən əvvəl böyük şair və istedadlı aşıqdır. Artıq XVII əsrdən etibarən türk ədəbiyyatında divan ədəbiyyatı ilə klassik aşıq yaradıcılığı qovuşaraq yeni bir mərhələyə qədəm qoymuş, yazılı ədəbiyyatla şifahi ədəbiyyatın sintezi nəticəsində şair-aşıq sənətkarlar yetişmişdir. Türkmənistanda Məxdumqulu, Azərbaycanda Vaqif, Türkiyədə isə Nədim bunların ən parlaq nümayəndəsi sayılır. Saz çalıb-çalmamasından, məclislərdə çıxış edib-etməməsindən asılı olmayaraq, onların yaradıcılığı şifahi xalq ədəbiyyatı ənənələri üzərində yüksəlmiş, folklordan bəhrələnərək nəşv-nüma tapmış, aşıq şeiri janrları aparıcı mövqedə olmuş, eyni zamanda divan ədəbiyyatı da öz qüvvətli təsirini qorumuşdur. Bu tipli sənətkarların yaradıcılığında qoşma, gəraylı, təcnis janrında yazılmış əsərlərlə bərabər, qəzəl, qəsidə və məsnəvilərə də rast gəlmək mümkündür.

Məhtimqulu söz sənətinə aşıq kimi qədəm qoymuş, türkmən və ümumtürk folklorunu dərindən mənimsəyən və inkişaf etdirən bir haqq aşığı səviyyəsinə yüksəlmişdir” [2, s.8-9].

Beləliklə, araşdırmalarımız göstərdi ki, böyük türkmən mütəfəkkiri Məhtimqulu Fəraqinin yaradıcılığına Azərbaycanın ədəbiyyatşünas alimləri tərəfindən həmişə böyük maraq göstərilmişdir. Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra isə bu maraq daha da artmışdır.

Məhtimqulu Fəraqi özünəməxsus özəlliklərə malik poeziyası olan böyük sənətkardır. Onun yaradıcılığı insanı özünə valeh edir; səmimi, inandırıcı və millidir. Milli olduğu qədər də xəlqidir. Şairin ölməz əsərləri, humanist baxışları təkcə türkmənlərinin deyil, bütün Şərq xalqlarının həyatına böyük təsir göstərmişdir. Məhz bu keyfiyyətlərinə görə tədqiqatçıları özünə cəlb edir və gələcəkdə də cəlb edəcəkdir. Onun poetik irsinin öyrənilməsi Azərbaycan və türkmən xalqının bir-birinə daha da yaxınlaşması, onlar arasında dostluq, həmrəylik, humanizm və türkçülük ideyalarının daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Tədqiqatımızın əsas məqsədi Məhtimqulu Fəraqinin ədəbi irsini təbliğ etmək, bu sahədə elmi araşdırmaları daha da dərinləşdirmək, beynəlxalq elmi və ədəbi ictimaiyyətin diqqətini böyük türkmən klassikinin poetik-fəlsəfi dünyasına cəlb etməkdir.

**Ədəbiyyat**

1. Aşırov, A. Məhdimqulu Fəraqi (Türkmən türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran və nəşrə hazırlayan: İsmixan Osmanlı). – Bakı: Mütərcim, 2013, 56 s.
2. Fəraqi, M. Seçilmiş əsərləri (Tərtib edən, türkməncədən uyğunlaşdıran və ön sözün müəllifi: Ramiz Əskər). – Bakı: MBM, 2010, 448 s.
3. https://lgz.ru/article/-19-6462-14-05-2014/edinstvo-naroda-velikoe-chudo/
4. Vəliyev, İ. Məhtimqulu şeirlərinin Azərbaycanda yayılması və öyrənilməsi problemləri // Ədəbi əlaqələr, Toplu, 2006, II cild, s.11-17.
5. Хабиббейли, И. Жизнь и творчество Махтумкули Фраги / Махтумкули Фраги и общечеловеческие культурные ценности. Материалы Международной научной конференции. 14-16 май. – Ашгабат: Ылым, 2014, с.169.